# Gələcəyimizi çiyinlərində daşıyanlar



**Mürsəl İrəvanlı,**

Yazıçı-publisist,
M. Qorki adına
Beynəlxalq
mükafat laureatı
Gəncə şəhəri

(oçerk)

**Yaşamaq yanmaqdır, yanasan gərək,**
**Həyatın mənası yalnız ondadır.**
**Şam əgər yanmırsa, yaşamır demək,**
**Onun da həyatı yanmağındadır.**
*B.Vahabzadə*

***Yer üzünün əşrəfi, şanı-şöhrəti, bizi dövrələyən planetdə bütün canlı aləmin sağlam və qayğısız yaşamasına, əməli fəaliyyətinə bilavasitə istiqamət verən, bu yöndə gecəli-gündüzlü yorulmadan, usanmadan çalışan yaradıcı insan... Belələri ulu Tanrının ona bəxş etdiyi bir ömürdə bəzən iki ömür yaşayır: - Şəxsi həyat, gündəlik qayğılarla yaşanılmış illər, yaradıcılığa fəda edilmiş həftələr, aylar... Belə cəfakeşlik insanın az qala bütün şüurlu həyatını əlindən alır, müqabilində ona əbədilik gətirir, ikinci daha önəmli həyat bəxş edir. Başqa sözlə, dünyanı insanların həyat və məişətini əks etdirən kamillik eyni zamanda insanların psixologiyasına yaxşı mənada təsir edir, onların tərbiyələnməsində, estetik zövqlərinin formalaşmasında çox önəmli rol oynayır. Məhz buna görə də insanın yaradıcılıq imkanlarını səfərbər etmək, geniş və səmərəli fəaliyyət göstərmək üçün onda mənəvi duyğular oyatmaq həyatın, cəmiyyətin tələblərindən irəli gəlir. Bunu inkar etmək və yaxud da görməmək mümkün deyil.***

Fəxr, fərəh hissi ilə deyə bilərik ki, bu gün sürətli inkişaf və tərəqqi edən cəmiyyətdə, el-oba arasında hörmət-izzət yiyəsi olan, sayılıb-seçilən insanların sayı çoxluq təşkil edir. Həyatın enişli-yoxuşlu, keşməkeşli sifətini görmüş belə şəxslər sözsüz ki, həmişə rəhmdil, xoşxasiyyət, gülərüz, nəhayətdə isə ətrafdakılara qarşı çox mehriban olurlar.

...Aqil insanlar çox haqlı demişlər ki, bütün dahilərin, sənət korifeylərinin ilk kövrək addımları müəllim zəkasının işığında püxtələşir, formalaşır. Belələri isə çoxdur. Birini digərindən ayırmaq məsələsi çətindən də çətindir. İstər-istəməz seçim qarşısında qalmalı oluruq. Əziyyətli də olsa, öz ləyaqətinə, peşə və vəzifəsinə həqiqi vurğunluğuna görə sayılıb-seçilən insanların sorağına düşməli olursan. Təbiidir ki, belə məqama az-çox səriştəsi olan yazan yeni görüşlə, yeni tanışlıqla sevindirmək, yaxud da həyəcanlandırmaq o qədər də asan məsələ deyil. Yaşadığımız bu ömrün hər gününü, hər ayını, yeni bir tanışlıqla mənalandırılan anlarda tanımadığın insanın həyat tarixçəsini vərəqləməklə zənginləşir, hər dəfə də bu tanışlıq qarşısında yeni bir dünya açır, səni əlçatmaz bir kainatla üzləşdirir.

Axı, hər insan qəlbi hələlik kəşf olunmamış bir dünya, öz qanunları, öz sevinc və kədəri ilə fərqlənən sirli bir aləmdir. Lakin etiraf edək ki, tanışlıqlarla zəngin olan bu ömür yollarında da qarşına hər dəfə belə maraqlı insanlar, şəxsiyyətlər çıxmır. Bəzən həftələrlə, aylarla axtarıb-aramalı olursan. Günlərin birində onunla görüşə təbii bir həyəcan hissi ilə gedirik.

Nazim müəllim Həsənovun görüşünə tələsirik. Onu yaxından tanıyanlardan, dost-aşnadan eşitmişdik xoş sorağını. O da bəlli olmuşdu ki, Nazim müəllim öyrənsə və öyrətmə amalı ilə yaşayan bir insan, sayılıb-seçilən ziyalılardan biridir. Bu fədakar el oğlunun yetirmələrinin xoş sorağı uzaq-uzaq ellərdən gəlir.

**Ömürdən bir yarpaq**

...Altmış beş il bundan öncə, 1957-ci ilin noyabr ayının 16-da Qərbi Azərbaycanın Zəngibasar mahalının Rəhimabad kəndində,



bu tərəflərdə böyük nüfuz sahibi olmuş Yaqub kişinin ocağında dünyaya göz açıb. Adını türk paşalarına uyğun Nazim qoydular. Körpə Nazim xoşbəxt idi ki, bir halal ocaqda, xəmiri sevgiylə yoğurulmuş bir ailədə doğulmuşdu.

***Yadıma düşdü ki, hər bir insanın arzuları yalnız tale yollarında öz qismətinə qovuşur. Doğulub boya-başa çatıb püxtələşən hər bir insan el-oba xeyir-duası ilə gələcəyə, sabaha ilk addımlarını atır. Aqillər deyib ki, xeyir-dua ilə başlanan yol həmişə uğurlu olur. Yaqub kişi uzaqgörən insanlardan biri olub. Dünyaya gələn övladlarını da özü kimi xalqına, torpağına məhəbbət ruhunda tərbiyə etməyə ömür-gün sərf edib. Uşaqlarının tay-tuşları arasında sayılıb seçilməsi naminə hər gün çətinliklə qarşılaşmaqdan belə çəkinməyib. Sözsüz ki, ailədə çəkilən zəhmət hədər getməyib, öz layiqli bəhrəsini verib.***

Övlad nəinki öz ailəsinin, həmçinin onu tanıyanların da üzünün ağ olmasına müvəffəq olub, adlı-sanlı insanlar, vicdan yiyəsi olan kadrların sırasını tamamlamağa çalışıb və çalışır.

Bu gülərüz, xoşrəftar insanla görüşüb söhbətimizə körpü saldıq:

**- Nazim müəllim, Sizin həyat tarixçəsindən bəzi məqamlar bizim üçün aydındır. Buna başqa əlavəniz varmı?**

Əlbəttə, başqa tay-tuşlarım kimi mənim də həyatımda müəyyən çətinliklər, keşməkeşli günlər az olmayıb. Bu təbiidir. Dövrdən, zamandan asılı olmayaraq insanlar həmişə yaxşı, xeyirxah işlərə, əməllərə can atmış, ona nail olanda isə sevinmiş, fərəh hissi ilə öz məqsədlərinə doğru inamlı addımlar atmışlar. Mən də belə insanlardan biriyəm.

Doğulub boya-başa çatdığım Qərbi Azərbaycanda orta təhsilimi başa vurduqdan sonra Bakıda Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsilimi davam etdirmişəm. Bu 1976-cı il idi.

Çox keçmədi ki, tələbə və müəllim heyəti arasında nüfuz qazandım. Universitetin bütün ictimai həyatında fəal iştirak edirdim. 1980-ci ildə tələbəlik illəri arxada qaldı. Doğma kəndimizə qayıtdım və həmin ildə qonşu Mehmandar kənd orta məktəbinə ixtisasım üzrə müəllim təyin olundum. Ucalığa, əlçatmaz, ünyetməz pillələr ucalmaq, hakimi mütləq başqa millətin arasında özünə layiqli mövqe tutmaq hər insan oğluna müyəssər olunur. Bunun üçün şəxsdə əzmkarlıq və mübarizlikdən əlavə gərəkdir ki, milli təəssübkeşlik də olsun, vicdanın hökmünə tabe olmağı da bacarsın...

Zəngibasar maşalı daşnaklar tərəfindən talan olunduqdan sonra Həsənovlar ailəsi də başqa soydaşlarımız kimi yerindən, yurdundan didərgin salındı. Yaqub kişi Gəncədə məskunlaşdı. Nazim müəllim 1989-cu ildən şəhərdəki A.S.Puşkin adına 9 saylı tam orta məktəbdə öz ixtisası üzrə işlə təmin olundu. Xeyli müddət burada çalışdıqdan sonra Gəncə şəhər Təhsil İdarəsinin göndərişi ilə istedadlı və işgüzar pedaqoq kimi sentyabr 2015-ci il tarixdən İ.Məmmədov adına 27 saylı məktəb-liseydə xüsusi istedadlar siniflərinə ixtisası üzrə müəllim təyin olunmuşdur.

Hal-hazırda həmin məktəbdə çalışır.

Nazim müəllim danışır... danışdıqca da nurani sifətinin ifadəsi tez-tez dəyişir. Gah buludlu səma kimi tutulur, gah da səhər təki açılır. Hərdən də kiməsə bəslədiyi rəğbət hissi üz cizgilərində dolaşır. O, danışdıqca elə təsəvvür yaranır ki, bu insan yola salınan illəri, tələbə dostlarını, iş yoldaşlarını, ilk məhəbbətini, ata olduğu gün keçirdiyi fərəh hissini bir daha yada salır, ünvanına yönəlmiş xoş sözlərin cingiltisi qulaqlarında əks-səda verir, duyğulandırır... Bəlkə də, sevimli şagirdlərinə Nizami, Nəsimi, Füzuli, Sabir, Mirzə Cəlil, S.Vurğun, H.Cavid, B.Vahabzadə, M.Müşfiq və digər görkəmli yazıçı və şairlərin keçdiyi həyat yolunu, yaradıcılığını əhatəli aşıladığına görə və uzun illər pedaqoji sahədə Fərhad kimi külüng vurub. Bunu nəzərdən qaçırmayan dövlətimiz onun əməyinə layiqli qiymət verib. 2018-ci ildə Respublika Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı və 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülməsi onun məsuliyyət hissini bir qədər də artırır. Ancaq buna baxmayaraq ürəyində bir nisgil, qüssə dolu bir həsrət var; deyir ki, neçə illərdir, gecələrimin yuxusu, gündüzlərimin xəyalları Zəngəzurda, Dərələyəzdə, Vedibasarda, Zəngibasarda, İrəvanda, Dərəçiçəkdə, Göyçədə, yaylaq yerimiz olmuş Ələyəzdə, Dilcan dərəsində elədən-belə dolaşır. İtirilmiş torpaqların haraya çağıran ah-naləsi qulaqlarımda əks-naləsi qulaqlarımda əks-səda verir. Nə deyim, qardaş, hələlik filçəkməz dərdlərimiz çoxdur. Pənah Allaha qalıb...

Aqil babalar çox dürüst buyurublar ki, insan sehirli bir varlıqdır. Öz həyatı, fəaliyyəti, sənəti və zövqü ilə başqa canlılardan fərqlənib seçilir. Dünyanın dərgi ən uca varlıq kimi insana məxsusdur. İnsan övladı dünyanı, onu əhatə edən aləmi dərk etdikcə təfəkküründə gerçəkliyin özünəməxsus modelini yaradır.

Dahi filosof Kantın təbirincə deyilərsə – "İnsan mütləq gözəlliyin idealıdır". Belə ki, bütün elmlər də insanın şüurlu fəaliyyəti ilə əlaqədardır və mübaliğəsiz, onun fəaliyyətini dünyanın, gerçəkliyin əhatəli dərk edilməsinə xidmətdə durur.

**- Nazim müəllim, sizcə dünyada ən böyük nemət nə deməkdir?**

Şəxsən mənim dünyada ən ülvi nemətim ömrüm, valideynlərim və övladlarım, bir də əlbəttə ki, şagirdlərimdir. Onlar həyatımın özəyini təşkil edir. Onlarsız mənalı həyat və ömür yoxdur. Adam gərək həmişə ata qeyrətini, ana şərəfini uca tutsun. Mən də ömrüm boyu çalışmışam ki, valideynlərimin – doğrudur, hər ikisi dünyasını dəyişsə də, övladlarımın, bacı və qardaşımın, həmçinin mənim yolumda əziyyət çəkən insanların arxasında durum. Məni tanıyanlar bunu yaxşı bilir. Hamısı göz önündədir. Həqiqətdə insan sənətkar və yaxud da adi peşə sahibi olsa da belə, öz vicdanının səsinə, hənirtisinə qulaq asmalıdır. İnsan müasir varlığın obrazlı dərki olduğuna görə onda həmvətənlərini sevmək, onları başqalarından fərqləndirmək üçün xüsusi istedada malik olmalıdır.

Başqa sözlə, insanın dünyaya münasibəti, ailəyə və kollektivə hüsn-rəğbəti çoxçeşidli olduğundan həyatda və xüsusən də ailədə müvafiq qanunauyğunluqlar, estetik normalar nəticə etibarilə təşəkkül tapır, formalaşır.

**- Nazim müəllim, məsələn, öz evinizdə ailənizlə tək qalan vaxtlarda nə düşünürsünüz və şəxsi həyatınızdan necə, az-çox razısınızmı?**

Həyatda elə anlar olur ki, tək qalmaq, necə deyərlər, ayıq başla öz-özünə hesabat vermək istəyirsən. İndiyə qədər nə iş görmüsən, qarşıda səni nə gözləyir? Mənasız yaşayıb ömür sürməmisən ki? Mənə elə gəlir ki, hansısa ürəyə yatmayan işin candərdi görmək olar, amma ömrü "candərdi" – yəni laqeydliklə başa vurmaq olmaz. İnsana həyatda nə isə bir iz qoymaq mütləq lazımdır. Elə düşünürəm ki, bu dünyada nəsə etmişəm, bir iş görmüşəm, sözün qısası, yüzlərcə şagirdin gələcək həyat yoluna mayak olmuşam. O ki, qaldı şəxsi həyatıma, ömür-gün yoldaşım Gülüzar xanıma, övladların, nəvələrin tərbiyəsi ilə məşğuluq. Şəxsən özümə gəldikdə isə az-çox nə etmişəmsə hamısı xalqımın, hazırda yaşadığım diyarımın nailiyyəti hesab olunmalıdır. Burada qeyri-adi heç nə görmürəm. Sadəcə olaraq başqaları kimi mən də öz vətəndaşlıq borcumu qismən də olsa yerinə yetirməyə çalışıram. Adi müəllim peşəsinin vurğunu olmuşam. Necə deyərlər, dəryada damla kimiyəm.

***- Bağışlayın, əsla belə deyil, Nazim müəllim! Siz damla-damla, qətrə-qətrə böyüyüb sahilinə sığmayan bir ümmansınız. Peşəkarlığınız, pedaqoji və həyat təcrübəniz, son məqsədə nail olmaq əzminiz, həmkarlarınız və şagirdləriniz arasında qazandığınız şəxsi nüfuzunuz sayəsində əlçatmaz zirvəsiniz. Bu zirvəyə pillə-pillə, addım-addım ucalmaq üçün ömrünüzün qırx ilini sərf etmisiniz. Bu ucalığa əl yetirmək, gələcəyi çiyinlərində daşımaq, onu mənzil başına sağ-salamat çatdırıb başqalarına ərməğan etmək hər kişiyə nəsib olmur. Bu sonluğa çatmaq üçün ömrünü yanan çıraq edəsən gərək. Məsələn, Sizin kimi...***